

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 58 (23.700)

2 aprel 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Səlçuk Bayraktarı və "ASELSAN" şirkətinin idarə heyətinin rəhbəri və baş direktoru Haluk Görgünü qəbul edib. Dövlətimizin başçısı Vətən müharibəsi zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə xalqının Azərbaycana dəstəyini xüsusi vurğulayıb. Səlçuk Bayraktarın bu uğurların önündə getdiyi diqqətə çatdırılıb, "Baykar" şirkətinin istehsal etdiyi məhsulların torpaqlarımızın azad olunması zamanı düşmən texnikasının məhv edilməsindəki rolu qeyd olunub.

Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin gücləndirilməsinə, əməkdaşlığın inkişafına, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə Səlçuk Bayraktarın "Qarabağ" ordeni ilə təltif edildiyini bildirib və ordeni ona təqdim edib.

Bu yüksək mükafata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Səlçuk Bayraktar bu mükafatın onun üçün böyük bir qürur və şərəf olduğunu deyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuku qəbul edib.

* * *

Prezident İlham Əliyev aprelin 1-də Dünya Bankının regional direktoru Sebastian Molineusu qəbul edib.

* * *

Aprelin 1-də Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşkilatın Baş direktoru Tedros Adhanom Qebreyesusla videokonfrans formatında görüşü olub.

## S.A.Tahirlinin "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sahil Abdulla oğlu Tahirli "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 aprel 2021-ci il*

## S.N.Seyidin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Surə Namidar qızı Seyid Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 aprel 2021-ci il*

## Şahmat üzrə "Naxçıvan Premium Turniri"nin mükafatlandırma mərasimi keçirilib



*Aprelin 1-də şahmat üzrə "Naxçıvan Premium Turniri"nin mükafatlandırma mərasimi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov çıxış edərək deyib ki, pandemiya dövründə Şahmat Federasiyasının da proqramında müəyyən dəyişikliklər edilib. Lakin Naxçıvan Muxtar Respublikası regionda pandemiyanın ən az yayıldığı yerdir. Federasiya bu müddət ərzində onlayn yarışlar və tədbirlər keçirərək şahmatçıların sevimli idman növlərindən kənar qalmamasını təmin edib.

Seymur Talıbov qeyd edib ki, federasiyanın bu turniri keçirməsində məqsədi şahmatçıların



müstəqil olaraq qərar vermələrini, onların böyük yarışlara, turnirlərə hazırlanmasını, eyni zamanda onların yarış təcrübələrinin artırılmasını təmin etməkdən ibarət olub. 12 ən yaxşı şahmatçı bu turnirdə nəyə qadir olduğunu göstərib. Təbii ki, idmançıların bu səviyyədə yetişdirilməsi, onların bu sahədə uğur qazanması Ali Məclis Sədrinin idmana göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri turnirdə mübarizə aparan şahmatçıları təbrik edib, gələcək karyeralarında uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev çıxış edərək turnir haqqında məlumat verib. Bildirilib ki, cari il yanvar ayının 8-də keçirilən federasiyanın yığıncağında irəli sürülən təklifə əsasən bu turnir keçirilib. Turnirdə iştirak edən zəka sahibləri öncə fevral ayında keçirilən yarışlarda mübarizə aparıb və burada iştirak etmək hüququ qazanıblar. Belə ki, muxtar respublikanın 5 titullu şahmatçısı ilə yanaşı, 7 seçilmiş şahmatçı "Naxçıvan Premium Turniri"ndə iştirak edib. Bu turnir digərlərindən bir çox xüsusiyyətlərinə görə fərqlənib. Xüsusilə ona görə ki, keçirilən turnirdə bir çox şahmatçı 1700, bəziləri isə 1800 əmsalını keçməyə müvəffəq olub. Digər tərəfdən keçirilən bütün görüşlər *chess.nax.az* və *chess24.com* saytlarından canlı yayımlanıb. Naxçıvanda şahmatın inkişafı, kütləvi hal alması muxtar respublika rəhbərinin adı ilə bağlıdır. Diyarımızın ən ucqar kəndlərində şahmat dərsləri tədris olunur, ən kiçik rayonumuzda belə dünya standartlarına cavab verən şahmat məktəbləri fəaliyyət göstərir. Eyni zamanda 3 idmançımız Ali Məclis Sədrinin xüsusi təqaüdünə layiq görülüb.

Qeyd edək ki, turnirin yekun nəticəsinə əsasən 11 turdan 9 xal toplayan Urfan Sevdimalıyev ilk dəfə təşkil olunan "Naxçıvan Premium Turniri"nin qalibi adını qazanıb. Eyni xal toplayan Pərviz Qasımov ikinci, Toğrul Həsənzadə isə 8 xalla üçüncü pillədə qərarlaşıblar.

Tədbirin sonunda qaliblər Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən pul mükafatı və hədiyyələrlə mükafatlandırılıblar. Mükafatları Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov, Gənclər və İdman naziri Azad Cabbarov və Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov təqdim ediblər.

Sonda şahmatçılar və qonaqlar üçün qala gecəsi təşkil olunub.

**"Şərq qapısı"**

## Azərbaycan Respublikasının Pakistandakı səfiri Əli Əlizadə Naxçıvan Dövlət Universitetində olub

Azərbaycan Respublikasının Pakistandakı səfiri Əli Əlizadə Naxçıvan Dövlət Universitetində olub. Ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev qonağa universitet haqqında ətraflı məlumat verib. Qeyd edilib ki, 2020-ci ildə Ali Baş Komandanın yüksək siyasi bacarığı, ordumuzun rəşadəti və xalqımızın birliyi nəticəsində qazanılan tarixi qələbədə Pakistan dövlətinin də siyasi və mənəvi dəstəyi böyük rola malik olub. Rektor Dağlıq Qarabağ münaqişəsinin həllində Pakistan dövlətinin tutduğu qətiyyətli və prinsipial mövqeyin xalqımız tərəfindən də həmişə böyük rəğbətlə qarşılandığını diqqətə çatdırıb.



Azərbaycan Respublikasının Pakistandakı səfiri Əli Əlizadə universitet haqqında xoş təəssüratlarını bölüşüb. Qeyd edilib ki, Pakistan Azərbaycanın haqq işində də hər zaman dövlətimizin, xalqımızın yanında olub, bizə öz dəstəyini açıq və birmənalı şəkildə ifadə edib.

Səfir ali təhsil ocağının Beynəlxalq münasibətlər ixtisası tələbələri üçün mühazirə deyib. Məlumat verilib ki, Pakistan Azərbaycanın müstəqilliyini Türkiyədən sonra ikinci tanıyan ölkədir. Azərbaycan Respublikasının müstəqilliyi Pakistan tərəfindən 1991-ci il dekabrın 12-də tanınıb. Vurğulanıb ki, Pakistan həmçinin Azərbaycanda səfirliyini açan ilk ölkələr sırasındadır. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il iyunun 9-da yaradılıb. Diplomat hər iki ölkə arasında xarici əlaqələri tarixi faktlarla tələbələrə çatdırıb. Qarşılıqlı müzakirədə təhsil sahəsində gələcək perspektivlər dəyərləndirilib.

Sonra müəllim və tələbələrin sualları cavablandırılıb. Səfir Diplomatiya kabinəsində qonaqlar üçün ayrılan xatirə dəftərinə ürək sözlərini qeyd edib, Universitet Televiziyası üçün müsahibə verib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Ay əmi, o maşın tez gəlsə əgər, Nə qədər sevinər bizim bu çöllər...

“Texnika əkinçinin sağ əlidir” kimi bir deyim var xalqımız arasında. Lakin bu deyim o zamanlar yaranıbmış ki, sərhlövhədə də deyildiyi kimi, əkinçilər saatlarla texnikaların yolunu gözləyirmişlər ki, nə vaxtsa gəlib onlara kömək edəcək, işlərini bir qədər yüngülləşdirəcək. İllər ötüb bizə müstəqilliyimizi bəxş edəndən sonra isə sovet dövründən qalma stereotiplərdən zaman-zaman xilas olduqca çoxunu televizorda, azını tarlalarda gördüyümüz texnikalar üçün gözlərimiz yollardan yığılmağa başladı. Müasir dövrümüzdə texnika tək əkinçinin deyil, bütövlükdə, zəhmət adamlarının hamısının sağ əli, dostu, əl əməyini minimuma endirən vasitədir. Çünki indi artıq texnika və texnoloji avadanlıqlardan tək əkinçi yox, kənd təsərrüfatının müxtəlif sahələrində çalışan insanların hər biri istifadə edir. Ölkəmizdə, eləcə də muxtar respublikamızda kənd təsərrüfatının ümumi inkişafı mənzərəsində müşahidə etdiyimiz bu mühüm amillə yeni deyim yaranır: “Texnika zəhmət adamlarının sağ əlidir”. Bu deyimin yaranma səbəblərindən başlıcası isə odur ki...

### *Torpağımız özümüzündür*

Bütövlükdə, çoxcəhətli və məhsuldar kənd təsərrüfatının formalaşdırılmasına imkan verən təbii-iqlim şəraitinə,



ən qədim əkinçilik mədəniyyətinə malik olan Azərbaycan taxılçılığın, üzümçülüyün, meyvəçiliyin, tərəvəzçiliyin və heyvandarlığın əsas mərkəzlərindən biri hesab olunmuşdur. Bu, qədim dövrdə də, sovetlər dönəmində də, müstəqillik illərində də eynidir. Lakin bir fərq ondan ibarət idi ki, 70 il sovet əsarətində biz torpaqlarımızın sahibi deyildik, öz torpağımızda gün çıxandan gün batanadək çalışıb, məhsul əldə etməklə başqalarını bəhrələndirirdik. Əslində, özümüzün olub sahibi olmadığımız torpaqlarda isə iş, əsasən, əl əməyi ilə həyata keçirilirdi. Tək-tək texnikalar isə zəhmət adamları üçün göydəndüşmə hesab olunurdu.

Ötən əsrin 70-80-ci illərində başlanan aqrar islahatların davamı olaraq ümummilli liderimiz Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 6 aprel 1992-ci il tarixli sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” Qərar qəbul edildi. Qərarda zərərlə işləyən təsərrüfatların ləğv olunması, onların bazası əsasında şəxsi təsərrüfatların yaradılması nəzərdə tutulurdu. Naxçıvanda həyata keçirilən torpaq islahatı daha sonralar bütün ölkədə keçirilən torpaq islahatına örnək oldu. İslahatlara başlanılan dövrdə bəzi qüvvələr tərəfindən insanlar arasında çaşqınlıq yaratmaq halları da az olmadı. Onlar belə bir qənaət formalaşdırmağa çalışırdılar ki, sovxoz və kolxozlar olmadan insanlar yaşaya, qazanc əldə edə bilməzlər. Lakin bütün bunların nə qədər yanlış fikirlər olduğu qısa zamanda özünü təsdiqlədi. Əksinə, kənd adamları torpaq sahibi olmağın bəhrəsini gördükcə ən asan dolanışıq yolunun da məhz torpaq olduğuna əmin oldular. Bu islahatlar çox məqamlara son qoydu. Ən başlıcası torpaqlar ədalətli şəkildə bölündü. İnsanlar təsəvvürlərinə gətirmədikləri halda, sanki itkin düşmüş “əzizlərinə” qovuşdular, mülk sahibinə çevrildilər. Blokadanın ilk, həm də çox ağır illərinə təsadüf edən aqrar islahat böyük inamla, demək olar ki, insanları məhv olmaq təhlükəsindən xilas etdi. Muxtar respublikanın iqtisadi tənəzzülü mənzərəsində torpaqların əkilib-becərilməsi, nəinki torpaq sahibi olanların, ümumilikdə, naxçıvanlıların xilasını qismən şərtləndirdi. Beləliklə, ildən-ilə əkin sahələri genişləndirildi, bu, heyvandarlığın inkişafına stimul yaratdı. Heyvandarlığın inkişafı sahibkarların formalaşmasına səbəb oldu. Sahibkarlıq fəaliyyəti fermer təsərrüfatlarının fəaliyyətinə zəmin yaratdı. Bütün bunlar isə nümunə gücündə olduğu üçün ailə təsərrüfatlarının yaranmasına vəsilə oldu. Məhsul istehsalçılarının torpaq islahatının ardınca hər an dövlət dəstəyini hiss etməsi, ölkə başçısının qərarına əsasən onlara istifadə etdikləri motor və sürtkü yağlarına görə subsidiyaların verilməsi, məhsuldar toxum, gübrə və damazlıq heyvanlarla təmin olunmaları, eləcə də buğda əkənlərə hər hektara səpin və yığım üçün vəsait verilməsi kəndlini torpağa daha möhkəm bağladı. Sonrakı illərdə isə muxtar respublikada lizinq xidmətlərinin həyata keçirilməsi, texnika və texnoloji avadanlıqların alınıb gətirilməklə zəhmət adamlarının əl əməyinin yüngülləşdirilməsi hər zamankı kimi bu qədim diyarda insan amilinə verilən dəyərin növbəti təzahürü oldu. Eyni zamanda vaxt itkisini aradan qaldırmaqla məhsul istehsalını sürətləndirdi, bu sahəyə marağın artmasını şərtləndirdi, zəhmət adamlarının həyatına müasirliyi, yeniliyi bəxş etdi. Nəzər salaq...

### *İldən-ilə artan yerşumlayan, taxılsəpən, gübrəsəpən, taxılbiçən, xüsusilə də toxumtəmizləyən, toxumdərmanlayan texnikalar*

Biz naxçıvanlılar blokadanın ilk illərində çörək sarıdan o qədər əzab-əziyyətlə qarşılaşmışıq ki, çörək bizim üçün öz müqəddəsliyindən də uca bir zirvəyə ucalıb. Bu çətinliyi yaşamağın özü muxtar respublikada taxıl əkini sahələrinin ildən-ilə artırılmasına səbəb olub desək, yanılmarıq. Çünki insanlar illərlə çörəklə imtahana çəkildi yurdumuzda. Elə buna görədir ki, muxtar respublikada mövcud torpaqlar əkilməklə yanaşı, son illər qapalı suvarma sistemlərinin qurulması hesabına 5 min hektardan artıq yeni torpaq sahəsi



də əkin dövriyyəsinə daxil edilib. Əkinçilərə hərtərəfli şərait yaradılıb. Subsidiyalar, güzəştli kreditlər, suvarma suyu ilə təminat, yeni texnikaların verilməsi taxılsaxlama anbarları, dəyirmanların bərpası, çörək istehsalı müəssisələrinin yaradılması – bütün bunlar bir tərəfdən taxıl əkininə marağın artırılması üçündürsə, digər tərəfdən insanların iş yeri, dolanışığı, ümumilikdə isə muxtar respublikanın çörəklə təminatıdır. Torpaq mülkiyyətçilərinin ildən-ilə yeni texniki vasitələrlə təminatı isə taxıl əkini sahəsində yeni bir mərhələdir. İllər öncə günlərlə əkin sahəsinin şumlanması, buğdanın biçilməsi üçün növbəsini gözləyən zəhmət adamları bu gün texnika bolluğu səbəbindən bu problemlə üzləşmir, məhsul itkisi ilə qarşılaşmır. Hətta gübrələrin belə maşınlarla verilməsi əkinçilərin əməyinin yüngülləşməsi ilə nəticələnib. Muxtar respublikada toxumçuluq təsərrüfatlarının yaradılması, toxumtəmizləyən və toxumdərmanlayan texnikaların alınması isə mülkiyyətçilərin keyfiyyətli toxumla təminatına səbəb olub. Keyfiyyətli toxum isə məhsul bolluğu deməkdir.

### *Kərəntidən müasir otbiçən maşınlara, presvuran, presbağlayan texnikalara*

Muxtar respublika iqtisadiyyatının əsasını tarixən əkinçilik və heyvandarlıq təşkil edib. Bu səbəbdən kənd yerlərində yaşayan insanlar ata-babadan əkib-biçib, heyvandarlıqla məşğul olublar. Hər kəs xatırlayar kəndlərimizdəki ot biçini zamanlarını. Elə ki yaz gəldi, yaz yağışları, bir də günəş torpağın köksündən çölün otunu-ələfini çölədüzə mehman etdi, ot biçininə hazırlıq işləri də başlanardı. Ot biçini böyük bir mərasim idi. Elə bir mərasim ki o başlananda hansı kəndə üz tutsaydın, sükutla qarşılaşardın, çünki



bütün sakinlər – uşaqlı-böyüklü hamı “ota” yollanırdılar. Kişilər – gənclər, cavanlar ot biçir, qadınlar samovar salır, ocaqda çay qaynadır, yemək hazırlayır, uşaqlar ot biçənlərə su daşıyırdılar. Ot biçini bir ailənin təkbaşına görəcəyi iş deyildi. Növbəyə salırdılar, qonşu qonşuya, qohum qohuma köməyə gəlirdi. Bir ailənin Naxçıvandan kənarda yaşayan övladı həmişə məzuniyyətini ot biçini dövrünə salırdı ki, kəndə gəlib atasına kömək etsin. Bir sözlə, bir ailənin ot biçini dövrü 20-25 gün çəkirdi.

Səhər obaşdan kərəntisi çiynində onlarla insan biçinə yollanırdı. Biçin vaxtı kənddə uzaqdan gələn kərənti səsindən və xəfif küləyin gətirdiyi xoş rayihəli ot ətrindən başqa heç nə duyulmurdu. Ot biçini zamanı otu biçib yerə tökmək şərt deyildi. Bu gün biçilən ot sabah tezdən sübhçağı şehli ikən laylanmalı, sonra bükülməli, kəndə daşınmalı idi. Bunların hamısı isə günün xüsusi saatlarında icra edilməli idi ki, ot yanmasın, yağış onu yararsız vəziyyətə salmasın. Bu gün ot biçini vaxtı onlarla otbiçən, presvuran texnikaları görmək insanların ot biçini zamanı üzləşdiyi olmazın əziyyəti xatırlamaq fonunda o qədər maraqlıdır ki...

### *Beldən kartofəkən, kartofbasdıran, kartofboğazlayan, kartofçıxaran texnikaya*

Muxtar respublikamızın elə bir kəndi yoxdur ki, orada kartof əkini keçirilməsin. İqlimi kartof əkini üçün münbit olan kəndlərimizdə bu sahə zəhmət adamlarını sahibkara, ailə təsərrüfatı başçısına çevirib, digər kəndlərimizdə isə hər ailə öz istifadəsi üçün bu məhsulu istehsal edir. Bütün kənd təsərrüfatı əkinləri kimi, kartof da əmək tələb edən bitkidir. Son dövrlərə qədər kartof əkmək üçün ot biçinində olduğu kimi, ailədə uşaqlı-böyüklü hər kəs iştirak etməli olurdu. Bir nəfər kartof əkini üçün şırım çəkməli, o biri çalalar açmalı idi. Toxumluq kartofu çalalara ailələrdəki uşaqlar paylayardılar. Vedrələrə yığılan toxumu gücləri yetdikcə metrlərlə o başa-bu başa daşımaqla ata-analarına kömək edərdilər. Sonra isə həmin metrlər bir dəfə də həmin çalalara təbii gübrə vermək üçün qət olunurdu. Növbəti dəfə isə çalaların üstü örtülürdü. Bitki torpaqdan baş qaldırıb birqarışlıq olanda boğazlama işləri görülürdü. Bu proses ən azı üç dəfə təkrarlanırdı. Məhsul yığımı dövründə isə yenə sahəboyu bel vasitəsilə kartof çıxarılır, vedrələrlə kənara, oradan isə lazımi yerlərə daşınırdı. Kartofun ərsəyə gəlməsi belin və insanın əl- qolunun gücü hesabına reallaşırdı. İndi isə tək beli kartofəkən, kartofboğazlayan, kartofbasdıran, kartofçıxaran kimi texnikalar əvəzləyib. Bu texnikalar tək beli əvəzləməyib, insanların əlinin əməyini yüngülləşdirib, qolunun gücünü öz üzərinə götürüb.

### *Ailə təsərrüfatlarının inkişafına dəstək olan texnikalar*

Son illər alınaraq muxtar respublikaya gətirilən texnika və avadanlıqlar içərisində elələri ilə qarşılaşırsan ki, istər-istəməz bir neçə illər öncəyə qayıdıb həmin texnikanın gördüyü işi əl əməyi ilə böyük çətinliklə, günlərlə həyata keçirənləri xatırlayırsan. Məsələn, bağçılıq üçün çiləyici avadanlıq, xamaçəkən, südsağan maşın, cəvizi qərzəkdən təmizləyən qurğu, heyvandarlıqda yem hazırlamaq üçün arpabuğda qırma maşını, yaş və quru otdoğrayan maşın, balsüzən aparat, soğanəkən apreqat və sair. Yəqin bu sadaladığım avadanlıqların gördüyü işi əl əməyi ilə görənləri hər kəs xatırlaya bilər. Kəndlərimizdə qonaq olarkən nənə-babalarımızın, əmi-bibilərimizin necə çətinliklə süddən xama çəkdiklərini, balı primitiv şəkildə düzəldilmiş “aqreqatla” süzdüklərini, cəvizi nə metodlarla qərzəyindən təmizlədiklərini, inəklərdən südü neçə saat, əlləri-qolları keyiyərək sağdıqlarını, mal-heyvan üçün səhərdən axşamadək həyətdə kötüyün üstündə ot-saman doğradıqlarını, bağlarda ağacları dərmanlamaq üçün süpürgədən istifadə etdiklərini görənlər az olmayıb. Bütün bunlar insanların həm vaxt, həm məhsul itkisinə səbəb



olur, həm də çox əmək sərf etdikləri üçün onları gördükləri işdən bezikdirirdi. Söhbət düşəndə “əşi, bu evin ehtiyacı olmasa, heç bu işlə məşğul olmağa dəyməz”, – deyirdilər. Lakin bu gün yuxarıda adlarını çəkdiyim texnika və avadanlıqlar insanların əl əməyini o qədər yüngülləşdirib ki, onlar, nəinki öz ailələri, bazar üçün də məhsul istehsalçısına çevriliblər. Əldə olunan gəlirlə gündən-günə təsərrüfatlarını genişləndirən zəhmət adamları bu texnikaları alıb istifadə etməklə ailə təsərrüfatı məhsulları adı ilə mağaza və bazarlara məhsul çıxarır, digər insanların da ehtiyaclarını ödəyir, bazarlarımızı yerli məhsullarla zənginləşdirir, ərzaq təhlükəsizliyinə təminat yaradırlar. Kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı keçirilən festivallar, sərgilər, məhsul yarmarkaları isə məhsul istehsalçılarını “kim daha yaxşı məhsul istehsal edir”, – deyə özlərini sübut etdikləri yerlərdir. Beləliklə, müasir texnikalar ailə təsərrüfatlarının inkişafı üçün ən gərəkli vasitədir.

### *“Ay əmi, o maşın tez gəlsə əgər, Nə qədər sevinər bizim bu çöllər”dən fərqli nəticə*

Şair Səməd Vurğunun bu iki misrası ilə dünənimizlə günümüzün müqayisəsi fonunda yeni nəticələr və məqamlar ortaya çıxır. Bir zamanlar çöllərdə, tarlalarda bircə maşın gözləməkdən gözləri yollara dikilən insanlara indi evlərinin içində traktor, ekskavator-buldozer, kotan, maşın və texnikalar təqdim olunur. Onlar çöldə iş başında maşın, texnika gözləmirlər, işə öz maşın və texnikaları ilə çıxırlar. Ötən illər ərzində “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış 3282 texnika və texnoloji avadanlıq muxtar respublikaya gətirilmiş, onlardan 2632-si lizinq yolu ilə sahibkarlara verilmişdir. Martın 31-də cəmiyyət tərəfindən alınmış yeni kənd təsərrüfatı texnika və avadanlıqlarının təqdimatı mərasimində Ali Məclis Sədrinin ***“Kənd təsərrüfatı sahəsində əl əməyi nə qədər yüngülləşərsə, bu sahəyə maraq o qədər artar, məhsul istehsalı yüksək olar”*** kimi dəyərli fikirləri bu sahədə həyata keçirilən işlərin mahiyyətini bir daha xarakterizə etdi.

Ölkə Prezidentinin əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair imzaladığı Dövlət proqramlarından irəli gələn vəzifələrin muxtar respublikada icrasının təmin edilməsi məqsədilə kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı qəbul olunan Dövlət proqramları və onların uğurla həyata keçirilməsi diyarımızda aqrar sahənin inkişafında, məhsul istehsalının artırılmasında mühüm amil olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı” isə kənd təsərrüfatı istehsalına əsaslanan ailə təsərrüfatlarının formalaşdırılması, özünüməşğulluğun, dayanıqlı inkişafın və ixrac potensialının, ümumilikdə isə ərzaq təhlükəsizliyinin təmin edilməsi nöqteyi-nəzərindən daha böyük əhəmiyyətə malik olacaqdır. Kənd təsərrüfatı muxtar respublikamızda daha da inkişaf edəcək. Çünki bunun üçün hərtərəfli şərait yaradılıb.

**Mətanət MƏMMƏDOVA**

# Oxucu məktubları

## Üçrəngli bayrağımız qürurla dalğalanır



*Hörmətli redaksiya!*

Ulu öndər Heydər Əliyevin müdrik siyasətinin doğma Naxçıvanda dönmədən həyata keçirilməsinin nəticəsidir ki, qədim diyarımız müasir görkəmə qovuşub. Bunu sərhəd bölgəmiz Sədərəyin timsalında da görmək olar.

Yaxın günlərdə rayonumuzun görkəmli yerində, Naxçıvan-Sədərək magistral avtomobil yolunun sağ tərəfində Bayraq Meydanının istifadəyə verilməsi rayon sakinlərinə dövlətimizin ən qiymətli hədiyyəsidir. Bayrağımızın azad səmamızda dalğalanması hər bir sədərəkliyə sevinc yaşadır. Üçrəngli bayrağımız bir addımlığımızda yerləşən düşmənə gözdağıdır. Xalqımızın qürur mənbəyi olan, müstəqilliyimizi təcəssüm etdirən üçrəngli bayrağımız bu gün işğaldan azad olunan hər bir rayon, şəhər, qəsəbə və kəndimizdə, strateji əhəmiyyətli yüksəkliklərdə dalğalanır. Əbədi müstəqilliyimizin rəmzi olan bayrağımız milli dəyərimiz, əyilməyən başımız, şax vüqarımızdır. Azərbaycan bayrağını müqəddəsləşdirən təkcə onun and yerimiz olması deyil, bayraq həm də dövlətimizin, bütövlükdə, xalqımızın gələcək yolunu müəyyənləşdirən bələdçidir. Milliliyi, dini inancımızı və müasirliyi təcəssüm etdirən bayrağımız azərbaycanlılara öz soykökünü xatırladır, üzərində dalğalandığı torpağın qədimliyini göstərir. Bu gün ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Hər birimiz müstəqil dövlətin vətəndaşı olaraq başımızı dik tutur, bayrağımız dalğalandıqca qürurlanırıq. Rayonumuzun 30 illik yubileyinə dəyərli töhfə olan belə gözəl Bayraq Meydanının inşasına göstərilən qayğıya görə mən bütün Sədərək sakinləri adından dövlətimizə minnətdarlığımı bildirirəm.

**Kəmaləddin ƏLİYEV**
*Sədərək rayon sakini*

## Şəhidlərin ruhu onların ailələrinə qayğı və ehtiram göstərildikdə şad olur

*Salam, hörmətli redaksiya!*

Mən 44 günlük Vətən müharibəsində şəhid olmuş Zülal Mədətlinin anasıyam. Şəhid anası olmağımla qürur duyuram. Bu məktubu da sizə şəhid övladımın dördüncü sinif şagirdi olan qızının köməyi ilə yazıram.

Uzun illərdir ki, hamımızın ürəyində bir qor yanırdı. Bir dərd daşıyırdıq hamımız: yurd həsrəti. İgid övladlarımız illərdir, qanayan yaramıza məlhəm oldular. Onlar öz canları bahasına, üzərimizdən tarixi ləkəni sildilər. Qələbə çalıb başımızı uca etdilər. Anaları olan Vətənin dərdinə dərman olub bizim ürəyimizə qor saldılar. Elə bir qor ki illər keçsə də, bu od sönən deyil. Vətən müharibəsində oğlum əbədiyyətə qovuşduğu gündən bəri mənim də, həyat yoldaşımın da sağlamlığımızda problemlər yaranmışdı. Demək olar ki, hər gün həkim nəzarətindəyik. Allah dövlətimizdən razı olsun. Gündəlik müayinələrimiz Şərur Şəhər Mərkəzi Xəstəxanasında yerinə yetirilir.

Yaxın günlərdə ürəyimdə olan problemə görə müraciət etdiyimdə ən son müayinə üçün Naxçıvan Diaqnostika Müalicə Mərkəzinə göndərildim. Bazar günü olmasına baxmayaraq, mərkəzin həkimləri gəlib bizi müayinə etdi. Tibb bacısı Pərvin Eminova, həkim Nail Mehbalıyev, mərkəzin baş həkiminin müavini Mətanət Səfərova sağlamlığımla maraqlandılar. Xəstəxananın müasir şəraiti, səliqə-sahmanı, tibbi personalın hörməti isə nəyə desən, dəyərdi. Həmin günün sabahı həyat yoldaşım və mən angioqrafiya olunduq. Hamı – tibb bacısından tutmuş xadiməsinə qədər hər kəs qayğımıza qaldı. Övladını itirmiş bir valideynin ürəyindəki dərdi heç nə sağalda bilməsə də, dövlətimizin qayğısı bizim dərdimizə məlhəm olur. Bizim – bütün şəhid ailələrinin böyük bir təsəllisi var: əzizlərimizin xatirəsinə ehtiramla yanaşılır, onlar unudulmur. Buna, xüsusilə də doğma diyarımızda şahid oluruq. Şəhidlərin ruhu isə onların arxada qoyub getdiyi ailəsindən rahat olanda şad olur. Bu gün bilirəm ki, oğlumun ruhu şaddır. Çünki onun ailəsinə, ata-anasına ehtiram göstərilir. Arzumuz budur ki, bundan sonra dövlətimiz daha da qüdrətlənsin, xalqımız bir daha müharibə dəhşətləri ilə üzləşməsin, hər zaman sülh, əmin-amanlıq içində yaşasın.

**Şərəbanu MƏDƏTOVA**
*Şərur rayon Çomaxtur kəndi*

*Razılıq*

## Vətəndaş məmnunluğu yüksək qiymətdir



*Hörmətli redaksiya!* Bu məktubu sizə ünvanlamaqla minnətdarlıq hisslərimi bildirmək istəyirəm. Bu gün dövlətimizin diqqət və qayğısı sayəsində muxtar respublikamızın digər bölgələri kimi, Ordubad rayonunun Nüsnüs kəndinin də siması tamamilə dəyişilib, yenilənib. Ucqar dağ yaşayış məntəqəsi yeniləşmiş kəndlər sırasına qoşulub. Burada aparılan geniş quruculuq işləri nəticəsində kənd tam orta məktəbi müasir məktəblər sırasına qoşulub. Muxtar respublikamızda təhsilə, elmə qayğının ifadəsi olan bu məktəb şagirdlərimizi daha yaxşı oxumağa, müəllimlərimizi isə böyük səylə çalışmağa ruhlandırır. Nüsnüsdə yeni kənd və xidmət mərkəzi idarəetmə işində, ailə təsərrüfatlarının fəaliyyətində, həkim ambulatoriyası sağlamlığımızın qorunmasında, müasir kənd yolu sakinlərimizin təhlükəsizliyinin və rahatlığının təmin edilməsində, qədim su dəyirmanının bərpası isə tarixi-mədəni irsimizin qorunub yaşadılmasında əhəmiyyətli rol oynayacaq.

Kəndimizdə həyata keçirilən belə tədbirlər dövlətimizin bizə göstərdiyi qayğının, insan amilinə verilən yüksək dəyərin ifadəsi olmaqla, bütün kənd sakinlərini sevindirir, vətəndaş məmnunluğunu daha da artırır. Yaradılan müasir şəraitə görə kənd sakinləri adından dövlətimizə minnətdarlığımı bildirirəm.

**Oruc ƏLİYEV**
*Ordubad rayonu, Nüsnüs kənd sakini*

## İnsan amilinə qayğı

*Salam, hörmətli redaksiya!*

Bu məktubu sizə ünvanlamaqda məqsədim bir qazi anası kimi kəndimizdə yaradılan şəraitə, şəhid və qazi ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığımızı bildirməkdir.



Bu gün muxtar respublikamızda insan amilinə göstərilən qayğı bütün sahələrdən öndə dayanır. Bu baxımdan əhalinin sağlamlığının qorunmasına ciddi önəm verilməsini də vurğulamaq lazımdır. Yaşadığım Şəhriyar kəndində səhiyyə xidmətinin təşkili də buna sübutdur. Belə ki, kəndimizdə quruculuq tədbirləri çərçivəsində məktəb binası, kənd və xidmət mərkəzləri ilə yanaşı, həkim ambulatoriyası da bizim istifadəmizə verilib.

Bir vaxtlar kəndimizin sakinləri mövcud olan sosial problemlərini çətinliklə həll edirdilər. Məktəb binası yararsız halda idi. Uşaqlar şəraitsizlik ucbatından bəzən dərsə getməkdən yayınırdılar. Məktəbə gedənlərin aldıqları təhsilin keyfiyyəti isə aşağı olurdu. Bugünkü məktəbimiz isə təkcə görünüşü ilə insanda lap uşaq olmaq, parta arxasına keçib təhsil almaq həvəsi yaradır.

Bütün bunlar da belə gözəl şəraitdə yaşayan gənclərimizə yaxşı oxumaq, vətənpərvər ruhda böyümək üçün stimul verir. Heç şübhəsiz ki, belə müasir şəraitin yaradıldığı bir kənddə yaşayan, hərtərəfli dövlət qayğısı ilə əhatə olunan gənclərimiz bu qayğının qarşılığında gələcəkdə dövlətimizin daha da inkişaf edib çiçəklənməsinə, xalqımızın rifahına xidmət etməlidirlər. Mən onlara bu yolda uğurlar arzu edirəm.

**Cehunə NƏCƏFOVA**
*Şərur rayonu, Şəhriyar kənd sakini*

## Bütün bu yaradılanlar sakinlərin rifahına hesablanıb

*Hörmətli redaksiya!*



Yuxarı Əndəmic kəndi həmişə Ordubad rayonunun özünəməxsus gözəl təbiəti, yaşıllığı, meyvəli bağları, sərin sulu bulaqları, təmiz havası, torpağına bağlı zəhmət və elm adamları, ziyalıları ilə seçilən yaşayış məntəqələrindən biri olub. Bu gün kənd sakinləri böyük sevinc içərisindədir. Belə ki, muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərindən Yuxarı Əndəmicə də pay düşüb. Yollarımıza asfalt örtük döşənib, insanların rahatlığı təmin olunub, üçmərtəbəli yaraşıqlı kənd mərkəzi istifadəyə verilib, burada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, zəngin kitabxana, poçt və rabitə şöbəsi, müasir tibbi avadanlıqlarla təchiz olunmuş həkim ambulatoriyası yerləşir. Artıq kəndimizin sakinlərinə sosial, mədəni, rabitə və səhiyyə xidməti göstərilir. Kənddə istifadəyə verilmiş xidmət mərkəzində ərzaq və təsərrüfat malları mağazası, bərbərxana, gözəllik salonu, dərzi yeri, ət satışı mağazası insanların xidmətindədir. Həmkəndlilərimin bir neçəsi burada işlə təmin olunub. Bu da onlarda minnətdarlıq və razılıq hissləri doğurur. Bütün bu yaradılanlar həm də kəndin simasını gözəlləşdirib, insanlarda böyük sevinc hissi və xoş ovqat yaradıb.

Bu məktubu sizə ünvanlamaqla bir kənd sakini kimi sevinc və minnətdarlıq hisslərimi bölüşmək istəyirəm ki, dövlətimizin qayğısı ilə müasir kəndimizdə elektrik, qaz, su, telefon, mobil rabitə və internet xidməti ilə bağlı problemlər tamamilə aradan qaldırılıb. Yuxarı Əndəmicdə əkin sahələri, münbit torpaqlarımız az olsa da, biz əndəmiclilər zəhmətkeşik, necə deyərlər, daşdan çörək çıxarmağı bacarırıq. Ulu babalarımızdan miras qalmış torpağı əkib-becərir, yaxşı bağ-bağçalar salır, müxtəlif növ meyvə ağacları yetişdirir, heyvandarlıqla, arıçılıqla, limonçuluqla məşğul oluruq. Sözün qısası, bu gün Yuxarı Əndəmicdə yaradılan şərait dövlətimizin kənd adamlarına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Mən kənd sakinləri, ziyalılarımız adından muxtar respublikamızın rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

**Əyyar SƏFƏROV**
*Ordubad rayonu, Yuxarı Əndəmic kənd sakini*

## Sağlamlıq ən şirin nemətdir

*“Şərq qapısı” qəzetinin redaksiyasına!*

Allahın ən gözəl hədiyyəsi də, sınağı da övladdır. Hər bir valideyn övladının qayğısına qalır, onun xəstələnməməsi üçün əlindən gələni edir. Amma bəzən göstərdiyimiz qayğı da uşaqlarımızı xəstəliklərdən uzaq tutmağa kömək edə bilmir. Bu zaman valideynlərin ən yaxın köməkçisi Hippokrat andı içmiş ağxalatlı insanlar olur. Elə mən də bu məktubu sizə övladımın sağlamlığını bərpa etməklə ailəmizə hədsiz sevinc yaşadan səhiyyə işçilərimizə minnətdarlıq məqsədilə ünvanlayıram.

Qızım Rövşənənin 12 yaşı var. Onun gözlərində daxili və yuxarıya doğru çəplik olduğu üçün əziyyət çəkirdi. Yaşı artdıqca həm sıxılır, həm də dərslərindən geri qalırdı. Gözlərindəki bu problem qızımı cəmiyyətdən də uzaqlaşdırdı. Bir neçə yerdə müayinə etdirsək də, heç bir nəticə əldə edə bilmirdik. Yaxınlarımdan birinin məsləhəti ilə Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkim-oftalmoloqu Məhəmməd Vəliyevə müraciət etdik. Qızımı hərtərəfli müayinə etdikdən sonra əməliyyata ehtiyac olduğunu dedi. Onu da deyim ki, adətən, belə xəstəliklərin sağalması iki əməliyyat tələb edir, amma gənc olmasına baxmayaraq, təcrübəli həkim cəmi bir əməliyyatla gözdəki problemi həll etdi. Qızımın gözləri tamamilə düzəlib, artıq heç bir problem yoxdur. Bir daha əmin olduq ki, muxtar respublikamızda yaradılan müasir şərait tibb işçilərinin işinin daha da keyfiyyətli olmasına imkan verir. Mən bir ana kimi bütün bunlara görə dövlətimizə minnətdaram.

**Natiqə HACIYEVA**
*Naxçıvan şəhəri*

## Dövlət dəstəyinə arxalanırıq

*Hörmətli redaksiya!*

Diyarımızda ailələrin maddi və mənəvi tələbatlarının ödənilməsi, həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Aztəminatlı ailələrin məşğulluğunun təmin edilməsi istiqamətində görülən işlər davamlı xarakter alıb. Bu, həmin ailələrə dövlət qayğısının ifadəsi olmaqla yanaşı, bu qəbildən olan insanların həyat şəraitinin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Belə ailələrin özünüməşğulluğunun təmin edilməsi ilə əlaqədar ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılması da diqqətdə saxlanılır. Uzun müddət ünvanlı dövlət sosial yardımı alan ailələrə fərdi təsərrüfatlarını qurmaq, öz iş yerlərini açmaq üçün müvafiq köməkliklər göstərilir.

Mən də neçə illərdir ki, ünvanlı dövlət sosial yardımı alırdım. Özünüməşğulluğun təmin edilməsi üçün Sədərək rayon Məşğulluq Mərkəzinə müraciət etdim. Çox keçmədən müraciətimə cavab verildi. Şəraitimizi öyrənib ailəmizə bir baş yanıbalalı, iribuynuzlu heyvan verildi. Ötən illər ərzində mal-qaranın sayını artırdığım üçün nazirlik tərəfindən mükafatlandırıldım. Yaxın günlərdə otdoğrayan aqreqatla təmin olundum. Bu mənə imkan verəcək ki, mal-qaranın yem təminatını daha da yaxşılaşdırım. Bu, ailə başçısını itirən bir qadın üçün böyük qayğıdır.

Ailəm adından göstərilən dəstəyə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Aybəniz ƏLİYEVA**
*Sədərək rayon sakini*

## Şəhidin xatirəsi yad edilib






*Naxçıvan Müəllimlər İnstitutunda şəhid Ruhid İslamlının xatirəsinə həsr edilmiş tədbir keçirilib.*

Qeyd olunub ki, Vətən müharibəsi tariximizin qızıl səhifələrindəndir. Xalqımızın igid oğulları cəmi 44 gündə 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad edərək özümüzə, doğma Vətənimizə qaytardı. Həmin döyüşlərdə canından keçən igidlərdən biri də məzunumuz Ruhid İslamlıdır. O, 2017-2020-ci illərdə institutun Təhsildə sosial-psixoloji xidmət ixtisasında təhsil alıb.

Bildirilib ki, Ruhid İslamlı 1999-cu il aprel ayının 1-də Lerik rayonunun Çeşman kəndində doğulmuşdu. 2000-ci ildə ailəsi ilə Bakıya köçən Ruhid uşaqlıqdan bir sıra idman növləri ilə – cüdo, cuicitsu, taekvando, güləş, qaydasız döyüş, üzgüçülüklə məşğul olmuş, dərəcələr almışdı. Regional, respublika səviyyəli rəsmi dövlət yarışlarında öz çəkisində yüksək yerlərə sahib olmuşdu. Həmçinin orta məktəbdə oxuduğu bir sıra bilik və hərbi yarışlarda da iştirak etmişdi. O, 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Müəllimlər İnstitutunun Təhsildə sosial-psixoloji xidmət ixtisasına qəbul olunmuşdu. Həmin dövrdə həm də tibb təhsili almışdı. II kursdan institutun Yeni Azərbaycan Partiyasının sədri idi. Gənclər Birliyinə də sədrlik edirdi. Azərbaycan Maarifçilər Assosiasiyasının üzvü idi. İnstitutu bitirdikdən sonra ötən il iyulun 27-də hərbi xidmətə yollanan, 27 sentyabrda başlanan Vətən müharibəsində haqq savaşına qoşulan, batalyon komandirinin köməkçisi kimi döyüşən Ruhid oktyabrın 6-da şəhadətə yüksəldi.

Tədbirdə Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilib, institutun Tələbə-Gənclər Təşkilatının ideyası əsasında şəhid Ruhid İslamlının xatirəsinə həsr olunmuş videoçarxa baxış olub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Elmi konfrans keçirilmişdir



“Naxçıvan” Universitetində “Ali məktəbdə müəllim-tələbə münasibətlərinin pedaqoji-psixoloji məsələləri” mövzusunda keçirilən elmi konfransda universitetin prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu çıxış edərək bildirib ki, müasir təhsil sistemi, müasir dövrün təhsil standartları tərəflər arasında daha sıx əlaqə, innovativ imkanlardan səmərəli istifadə ilə yanaşı, təhsilə müasir yanaşma da tələb edir.

Pedaqogika və psixologiya kafedrasının dosenti Lalə Allahverdiyeva “Ünsiyyətin tələbə şəxsiyyətinin formalaşmasına təsiri”, kafedranın müdiri, baş müəllim Aytən Məmmədova “Müəllim-tələbə münasibəti probleminə müasir baxış”, baş müəllim Nübar Səfərli “Müəllim-tələbə münasibətləri pedaqoji prosesin səmərəliliyinin əsas şərti kimi” mövzularında məruzə ediblər. Məruzələrdə vurğulanıb ki, qarşılıqlı ünsiyyət prosesində müəllim tələbələrə fərdi yanaşma nümayiş etdirməli, tələbənin psixologiyasına uyğun şəkildə fərdi yanaşma sərgiləməlidir. Müasir təhsil sistemində müəllim-tələbə münasibətlərinin düzgün qurulması pedaqoji prosesin mühüm tələbi, keyfiyyətli təhsilin başlıca şərtidir.

Elmi konfransın sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## “Naxçıvanım – göz nurum”

### Şair və yazıçılarımızın əsərlərində doğma torpağa məhəbbətin tərənnümü

Odlar yurdu Azərbaycanımızın qədim və ayrılmaz bir hissəsi olan Naxçıvanı “Şərqin qapısı” adlandırırlar. Mövcudluğu dövründən bu diyar dünya sivilizasiyasının aparıcı mərkəzlərindən biri olmuş, bəşər mədəniyyətinin, həmçinin qədim Şərqin mədəni ocaqları sırasında durmuşdur. Tarixin səhifələrini vərəqlədikcə görürük ki, Naxçıvanda dünya şöhrətli siyasətçilər, elm, incəsənət, mədəniyyət və ədəbiyyat dühaları yetirmiş və yetirməkdədir.




Bu qədim və bərəkətli torpağın qoynunda möhtəşəm bir Çinar ağacı kök atır. Bu Çinarın göylərə ucalan budaqlarında bəşəri dəyərləri açıb dünyaya bəyan edən, elmi-əxlaqi təsəvvürün şahı sayılan Nəsirəddin Tusi kimi elm xadimi, Azərbaycan tarixinin böyük bir hissəsini əks etdirən Məmməd Səid nəsri, Tanrısı gözəllik və sevgi olan Hüseyn Cavid poeziyası, qaranlıqlar içində zillət çəkən xalqını “Molla Nəsrəddin” adı ilə güldürən və gülə-gülə də düşündürən Mirzə Cəlil satirası yaşayır. Bu Çinarın İslam Səfərli, Məmməd Araz, Adil Babayev, Hüseyn İbrahimov, Hüseyn Razi, Əliyar Yusifli kimi pöhrələri XX əsrin ikinci yarısından sonra əzəmətli budaqlara dönmüşlər. İllər ötdükcə bu ədəbi-bədii Çinarın yeni pöhrələri boy atır, sərt sınaqlardan keçərək bərkiyir, özünə layiq yerlər tutur. Yaradıcılıqları ilə Azərbaycan ədəbiyyatını zənginləşdirən Kəmalə Ağayeva, Elmira Qasımova, Güllü Məmmədova, Elman Həbib, Vaqif Məmmədov, Asim Yadigar, Muxtar Qasımzadə, Xanəli Kərimli, Hüseyn Əsgərov, Qafar Qərib, Elxan Yurdoğlu, Nərgiz İsmayılova... Naxçıvan torpağında yaşayıb-yaratmaqla doğma torpağa məhəbbətlərini öz əsərlərində tərənnüm etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun dəstəyi ilə “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində 73 şairin 102 adda şeirləri, 9 müəllifin poemaları, bir povestindən ibarət “Naxçıvanım – göz nurum” adlı almanaxı çap edilərək oxuculara təqdim olunmuşdur. Kitab Xalq şairi Məmməd Arazın “Qızlar bulağı” şeiri ilə açılır. Hər misrası ilə qəlbimizi ovsunlayan sevimli şairimiz Məmməd Araz öz poeziyasında doğulduğu Naxçıvan torpağını ürəyinin bir parçası bilir. “Bu yerlər, o yerlər” şeirində deyir:

*Budur, uşaqlığım keçən o yerlər,*
*Çadırdaş ətəyi, Nursu bulağı.*
*Burda böyümüşəm, belə deyirlər,*
*İnana bilmirəm, bilmirəm axı.*

Batabatın qəlb ovsunlayan gözəlliyi, Xalxal meşəsinin füsunkarlığı, Arpaçayın axarı, Duzdağın süfrələr bəzəyən neməti, Əlincənin əzəməti, Bəhruz Kəngərli kimi sənətkarlar, Koroğlu, Babəktək oğullar, xumargözlü qızlar İslam Səfərlinin şeirlərində bədiiləşmiş, bunların bir çoxuna mahnılar bəstələnmişdir. Bu ənənəyə sadiq qalmış nəğməkar şairin “Batabat bulağı” və “Xalxal meşəsi” şeirləri almanaxda yer almışdır:

*Demirəm, uca bir dağ belindəsən,*
*“Aran meşəsi”sən el dilində sən,*
*“Naxçıvan çayı”nın sahilində sən,*
*Boy at, qoy İslamın gülsün nəğməsi,*
*A Xalxal meşəsi, Xalxal meşəsi.*

Muxtar respublikanın elə guşəsi yoxdur ki, Hüseyn Razi şeirlərində tərənnüm olunmasın. “Əlincə qalası”, “Ordubada gəlin”, “Duz dağı”, “Salvartı”, “Batabat”, “Naxçıvandadır” və digər şeirlərində şair muxtar respublikanın gözəlliklərini poetik dillə qələmə almışdır.

Əsərləri sevilə-sevilə oxunan Əliyar Yusiflinin “Naxçıvanam” və “Əlincə qalası” şeirləri də almanaxda yer almışdır. Şair müqəddəs və məğrur yerlərlə oxucusunu tanış edir, bu şeirlərdə doğma diyara məhəbbəti daha poetik, daha doğmadır:

*Araz üstə dayanmısan mayak tək,*
*Gen sinənə yaraşıqdır gül-çiçək.*
*Minarələr buluddan nəm çəkəcək,*
*Ana yurdum vüqarımsan, Naxçıvan,*
*Abidələr diyarısan, Naxçıvan!*

Naxçıvan torpağının Məhsətisi şairə Kəmalə Ağayevanın “Doğma Naxçıvanım” və “Quran əllər var olsun” şeirlərində doğma el-obaya məhəbbət hissləri ümumiləşmişdir.

Elman Həbibin yaradıcılığında Naxçıvan mövzusu bir neçə bəndlik şeirdən başlamış və “Naxçıvannamə” adlı bütöv bir kitaba dönmüşdür. Ümumiyyətlə, Elman Həbib yaradıcılığında muxtar respublikamızın dünəni, bu günü, sabahı şair istedadına xas olan səviyyədə tərənnüm olunmuşdur.

Şair-publisist Vaqif Məmmədov da qədim diyara olan məhəbbətini özünəməxsus tərzdə ifadə etmişdir. Muxtar respublikamızın alınmaz qalası hesab edilən Sədərək haqqında bir çox şeirlər yazan Vaqif Məmmədovun “Naxçıvan nəğməsi” şeiri daha poetikdir. Yaşı beş minə çatan Naxçıvanın Əshabi-Kəhfi möcüzə, Şəruru hünər meydanı, Ordubadı yaşıl ada, Zorbulağı zor axandı. Şairin Batabat cənnət bağı, Sədərək qeyrət qalası kimi tərənnüm olunan şeirində gözlərimiz önündə canlı tablo yaradılmışdır.

Araz üstə qərar tutan, yaşı əsrlərlə ölçülən doğma Naxçıvanımızın müstəqillik yaşı çox olmasa da, yüksək tərəqqi ilə inkişaf etməsi, tarixin yaddaşında əbədi həkk olunan yeni abidələrin tikilməsi qələm sahiblərinin qəlblərini riqqətə gətirir və bir-birindən gözəl əsərlər yaranır.

Ulu öndər Heydər Əliyevin: ***“Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə yaşadan bir diyardır”*** müdrik fikrini yaradıcılığına epiqraf seçən şair-publisist Muxtar Qasımzadə “Gəmiqaya”, “Oğlan qala, qız qala”, “Əlincə”, “Fərhad evi”, “Gülüstan”, “Qarabağlar türbəsi” kimi şeirlərində qızıldan qiymətli örnəklərimizə tariximizin canlı şahidləri kimi poeziya qiyafəsində bir daha ömür qazandırmışdır. Kitabdakı “Könül dostu Naxçıvanım” şeirində də şair öz ənənəsini davam etdirir:

*Qürur duydum Əcəmindən, müdrik öndər*
*Əlisoydan,*
*Dədəm Qorqud dastanından məhəbbətlə*
*dolu boydan,*
*Əlincədən, Arpaçaydan, Qazan göldən,*
*Ulu çaydan,*
*Atabəyim, Hinduşahım, dahi Tusim-*
*kəhkəşanım,*
*Ata yurdum, ana yurdum, könül dostum*
*Naxçıvan!*

Tanınmış şair-publisist Asim Yadigarın yaradıcılığında Azərbaycanımızın qədim və ayrılmaz parçası olan Naxçıvan diyarı bütün gözəllikləri ilə tərənnüm olunmuşdur. “Naxçıvanım – göz nurum”, “Azərbaycan tarix yazır”, “Gəncləşən Naxçıvanım” adlı şeirlərində şair öz sevgi və məhəbbətini doğma elinə bəyan edir:

*Naxçıvan – göz nurum, bəxtiyarlığım,*
*Naxçıvan – düşmənə göz dağım mənim.*
*Bu yurddan güc alıb azadlıq eşqim,*
*Ucalıb üçrəngli bayrağım mənim.*

“Naxçıvan – göz nurum” almanaxında muxtar respublikamızın digər tanınmış şairlərinin də şeirləri yer almışdır. Hər bir şeirdə bu gözəl diyar məhəbbətlə tərənnüm olunmuşdur.

Asim Yadigarın “Kalba Musa çeşməsi”, Fərəc Fərəcovun “Müstəqillik yollarında”, Muxtar Qasımzadənin “Naxçıvanqala haqqında ballada”, Qafar Qəribin “Bu şəhər gördüyün o şəhər deyil”, Elxan Yurdoğlunun “Naxçıvan dastanı”, Zaur Vedilinin “Nuh yurdu” və başqaları kitabın poemalar bölməsində dərc olunmuşdur. Nəsr bölməsində isə istedadlı alim, yazıçı, bir çox elmi və bədii kitabların müəllifi Nərgiz İsmayılovanın “Əcəmi” povesti oxuculara təqdim edilmişdir.

*Ümumiyyətlə, “Naxçıvanım – göz nurum” almanaxında verilmiş şeir və poemalarda, povestdə qədim Naxçıvanın ulu keçmişi, əsrlərin yadigarı olan tarixi abidələri, torpağın əsrarəngiz təbiəti, eləcə də gündən-günə gözəlləşən, abadlaşan şəhərlərin, qəsəbələrin, kəndlərin misilsiz dərəcədə inkişafı poetik dildə tərənnüm olunur. Bu kitabı oxumağa dəyər.*

**İbrahim YUSİFOĞLU**
***AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı***

## Turnirə yekun vurulub



Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən “Naxçıvan Premium Turniri”nə yekun vurulub. Ən yaxşıların yarışında 12 zaka sahibi mübarizə aparıb. Yarış dairəvi sistem üzrə 11 turdan ibarət olub.

Turnirin sonuncu turu maraqlı oyunlarla yadda qalıb. Belə ki, liderlər cərgəsində qərarlaşan FİDE ustası Pərviz Qasımov (2337) Seyid Hüseyni (1660), qrossmeyster Urfan Sevdimalıyev (2369) isə FİDE ustası Sadiq Məmmədovu (2237) məğlub edərək aktivlərinə növbəti xalı yazdırıblar. Son tura kimi liderlərlə mübarizə aparan beynəlxalq usta Toğrul Həsənzadə (2322) Ayxan Əliyevin (1683) müqavimətini qırmaqda çətinlik çəkməyib. Turnirboyu liderlərlə baş-başa mübarizə aparan Nəsrin Babayeva (1964) sonuncu turda Orxan Bağırovu (1473) məğlub etməklə ardıcıl 3-cü qələbəsini bayram edib. Beynəlxalq usta Talıb Babayev (2282) Sadiq Qarayevlə (1781) xalları yarı böldüyü halda, Ərturan İsmayılov (1663) Yeganə Əhmədovadan (1421) üstün olub.

**Ceyhun MƏMMƏDOV**

## Ahıllar tibbi müayinə olunub



Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və orta tibb işçiləri dünən xəstəxananın 12 nəfərdən ibarət həkim briqadası tərəfindən Ordubad rayonunun Yuxarı və Aşağı Əylis, Ağrı, Vənənd kəndlərində müayinələr aparılıb. Tibbi aksiyada müxtəlif ixtisas həkimləri iştirak ediblər.

Xəstəxanaya gələ bilməyən 16 tənha ahıla evlərində tibbi xidmət göstərilib. Gün ərzində laborator təhlillər aparılıb, ultrasəs müayinəsi keçirilib.

Ahıllar başqa yerlərə getmədən, ev şəraitində müayinə olunduqlarına görə minnətdarlıq ediblər.

Qeyd edək ki, humanitar tibbi aksiya muxtar respublikanın digər rayonlarında da həyata keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayonunun Şıxmahmud kəndində yaşamış Bayramov Hidayət Hüseyn oğlunun adına olan JN-575A inventar nömrəli, 10311018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 273